BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2013

UOT 94"19/…"

# XX ƏSRİN 80-ci İLLƏRİNDƏ İRAQ-ABŞ MÜNASİBƏTLƏRİ

**G.İ.QARAYEVA**
*Bakı Dövlət Universiteti*
*qarayeva1947@hotmail.com*

*Altı günlük ərəb-İsrail savaşı nəticəsində İraqla ABŞ arasında diplomatik münasibətlər kəsildi. İraq-İran savaşı zamanı bu münasibətlər bərpa olundu. 1982-ci ilin fevralında ABŞ İraqı beynəxalq terrorizmi dəstəkləyən dövlətlər siyahısından çıxardı. 1984-cü ildə İraq-ABŞ münasibətləri inkişaf edərək yeni mərhələyə qədəm qoydu. 26 noyabr 1984-cü ildə İraqla ABŞ arasında diplomatik münasibətlər yenidən bərpa olundu. Bu münasibətlə Tariq Əziz Vaşinqtona rəsmi səfər etdi. Savaşın gedişində ABŞ Iraqa hər cür hərbi yardım göstərdi. 1988-ci ilin avqustunda İranla İraq arasında savaşın dayandırılması haqqında razılıq əldə edildi.*

**Açar sözlər:** savaş, sülh, Tariq Əziz, münasibətlər

XX əsrin 80-ci illərində ABŞ-İraq münasibətləri inkişafa yeni mərhələyə yüksəlmişdi ki, buna səbəb olan amillərdən biri də İraqın İranla münasibətləri idi. Məlum olduğu kimi, İran-İraq arasındakı ziddiyyət 1980-ci ildə iki ölkə arasında hərbi toqquşma ilə nəticələndi. Buna səbəb isə iki dövlət arasında sərhədlərin dəqiq müəyyənləşməməsi və bir-birinin daxili işlərinə qarışması olmuşdur.

İran-İraq savaşı başlayan andan Vaşinqton özünün ciddi neytralitetini elan etdi. İsrail məsələsində sərt mövqedən çıxış edən İraqla Amerikanın elə bir münasibəti yox idi (1, 778). İki ölkə arasındakı əlaqələr Altı günlük savaşın gedişində ABŞ-ın İsraili dəstəkləməsinə görə kəsilmişdi. Bununla belə, Vaşinqton-Bağdad əlaqələri Xomeyninin hakimiyyətə gəlməsindən doqquz ay sonra yenidən janlanmağa başlamışdı. Savaş başlayandan bir il sonra isə ABŞ tərəfi Amerika-İraq münasibətlərinin normallaşdırılmasının əleyhinə olmadığını bildirdi. Bundan sonra, yəni 80-ci illərin əvvəllərindən etibarən ABŞ-İraq münasibətləri sürətlə yaxınlaşmağa başladı. Buna səbəb isə İranda fundamental recim yaratmış V.Xomeyniyə qarşı İraqdan istifadə etmək istəyi idi. Çünki İran dünya neft ehtiyatlarının yarıdan çoxunu ödəyən və zəngin neft ehtiyatlarına malik olan Fars körfəzində Amerikanın geostrateji maraqları üçün ciddi təhlükə törədirdi. Amerikanın senat komitəsi elan etmişdir ki, ABŞ-la İraq arasında «kəşfiyyat xarakterli» əlaqələrin 1984-cü ildə yaranmasına bax-

mayaraq, əslində bu münasibətlər iki il əvvəl İranın İraq savaşında üstünlük qazanmasından sonra başlamışdır (2, 39).

Hətta İsrailin İraqın Atom reaktorlarını bombalaması belə bu müsbət irəliləyişə mane ola bilmədi. 1982-ci ilin fevralında ABŞ İraqı beynəxalq terrorizmi dəstəkləyən dövlətlər siyahısından çıxardı və bu ölkəyə Amerika mallarının eksportunu müəyyən edən məhdudiyyət aradan qaldırıldı. Həmin il ABŞ açıq şəkildə bildirdi ki, İraqın tərəfində durmağa hazırdır. MKİ-nin keçmiş əməliyyat şöbəsinin rəisi Edvard Cuçneviç bu münasibətlə bağlı demişdir: «Düşmənimin düşməni bizim dostumuzdur» (2, 39). Rus tədqiqatçısı P.P.Lvov Vaşinqton-Bağdad münasibətlərinə toxunaraq qeyd edirdi ki, Vaşinqton nəinki Səddamın hərbi vəziyyətdən istifadə edərək, siyasi müxalifətə, kürdlərə, şiələrə qarşı tətbiq etdiyi cəza tədbirlərinə, həmçinin kütləvi qırğın silahı istehsal edən İraq elmi mərkəzlərinin kimyəvi və bioloji korporasiyaları ilə fəal əməkdaşlığına da göz yumur (3, 6).

Savaşın başlanmasının üç ili ərzində iri dövlətlər İraqa xeyli sayda silah satmışdılar. Bu müddət ərzində İraqa ən çox silah satan ölkə Fransa olmuşdur. Savaş başlayandan – 1980-ci ilin sentyabrından-1983-cü ilin mayına qədər Fransa İraqa 41,1 mlrd. frank məbləğində silah satmışdı (4, 8). İraqı silahla təchiz edən ikinci ölkə Misir, Fars Körfəzi Ölkələri və Amerika Birləşmiş Ştatlarıdır. Maraq doğuran cəhət budur ki, ABŞ-ın İraqla diplomatik münasibətlərinin kəsilməsinə baxmayraq, onun monopoliyaları bu müddətdə 90 hərbi vertalyot və digər silahların satılması ilə əlaqədar Bağdadla saziş bağlamışdılar (4, 9). ABŞ-ın İraqa silah satmasına baxmayaraq, Vaşinqton Fransanın Bağdada silah və hərbi təchizat satmasını tam bəyəndiyini bildirdi. 1983-cüildə ABŞ kənd təsərrüfatı, sənaye malları və ərzaq alınması üçün İraqa 1 mlrd. dollar həcmində kredit ayırdı (5, 349). 1983-1990-cı illər üçün Vaşinqtonun İraqa ayırdığı 5 mlrd. kredit xalqını yedirtməyə və silahlanmaya xərcləməli idi (6, 65).

İraq-İran savaşı iri dövlətlərin mənafeyinə xidmət edirdi. Bu savaş ABŞ-ın «Həyati əhəmiyyətli» ərazi adlandırdığı Fars Körfəzində öz silahlı qüvvələrini yerləşdirməyə imkan verirdi. Qərb ölkələrinə və ABŞ-a neft daşınması üçün təhlükə olduğunu əsas götürərək, Vaşinqton Körfəzi nəzarət altında saxlamaq üçün İngiltərənin, Fransanın, Avstraliyanın hərbi-dəniz qüvvələrinin vahid komandanlığını yaratmışdı. Amerika girovları probleminin hələ həll olunmaması ilə əlaqədar olaraq İranın beynəlxalq vəziyyəti kifayət qədər mürəkkəb idi.

İraq-İran hərbi münaqişəsinə qarşı yönəlmiş hər hansı bir aksiya Birləşmiş Ştatların məsələyə müdaxiləsinə əsas verirdi. Məsələn, İranın Hörmüz boğazını bir və ya iki 500 min ton gücündə tankerlərdən istifadə etməklə Fars Körfəzini mühasirəyə alacağını bildirdikdə, Pentaqon əlavə olaraq, Fars Körfəzinə «Enterprayz» və iki min dəniz piyadası göndərmişdi (4, 9). Buraya həmçinin İngiltərənin HDQ döyüş əməliyyat qrupu da göndərildi. Vaşinqton, London və Paris Körfəzdə hərbi əməliyyatların mümkünlüyü haqqında danışıqlara qoşuldular. Belə vəziyyət, regionda gərginliyi daha da artırdı.

İraq-İran münaqişəsi ərəblərarası münasibətlərə də mənfi təsir göstərdi. Suriya və Liviya İranı, Misir Səudi Ərəbistanı, Urdun isə İraqı müdafiə edirdi. Belə parçalanma İsrail və ABŞ üçün əlverişli şərait yaradırdı.

Hələ 1983-cüilin oktyabrında ABŞ Hörmüz boğazı vasitəsilə azad gəmiçiliyi qorumaq adı altında 2000 nəfərlik dəniz piyadalarından ibarət operativ-desant bölməsini təcili olaraq Hind okeanına göndərmişdi. Dörd ay keçdikdən sonra 1984-cüilin fevralında bilavasitə Fars körfəzi yaxınlığında «Miduey» təyyarə gəmisi və daha beş Amerika hərbi gəmisi, Körfəzin özündə isə ABŞ Hərbi Dəniz Donanmasının beş döyüş gəmisi var idi (7, 425). Bundan əlavə olaraq, Səudi Ərəbistanında ABŞ AVAK sistemi ilə təhciz edilmiş təyyarələr vasitəsilə regionda bütün təyyarələri müşahidə edirdi. 26 fevralda Amerika eskadra mina gəmisi İranın kəşfiyyat təyyarəsinə xəbərdarlıq, İran hərbi gəmisinə isə işıqlandırıcı raketlərlə atəş açdı. Bu onunla əsaslandırılırdı ki, həm gəmi, həm də təyyarə Amerika esminesinə lap çox yaxınlaşmışdılar (7, 425-426).

ABŞ-İraq münasibətlrinin yaxşılaşması istiqamətində prezident Reyqanın xüsusi nümayəndəsi D.Ramsfeldin Bağdada iki səfəri də əhəmiyyətli oldu. 20 dekabr 1983-cüildə ABŞ prezidentinin Yaxın Şərq üzrə köməkçisi olan D.Ramsfeld saat yarım Bağdadda S.Hüseynlə danışıqlar aparmışdır, sonradan Amerika gizli sənədlərindən məlum olmuşdur ki, diktatoru regionda ekspansiyanı genişləndirməyə təhrik etmişdir (3, 6). Donald Ramsfeld Bağdadda Səddam Hüseynlə görüşündən sonra, Vaşinqton öz müttəfiqlərinin İrana silah satmamasına nail olacağı barədə İraqa söz verdi. Eyni zamanda, ABŞ İraqı Qırmızı Dənizlə birləşdirən neft kəmərinin çəkilməsinə dair Bağdadın razılığını aldı. Bu məqsədlə, ABŞ-ın İraq İdxal Bankı 500 mln. dollar maliyyə ayırdı (8, 102).

1984-cü ildə İraq-ABŞ münasibətləri inkişaf edərək yeni mərhələyə qədəm qoydu. Belə ki, 1984-cüilin oktyabrında Bağdadda ABŞ-ın İnformasiya Agentliyi yenidən fəaliyyətə başladı. Səddam Hüseyn ABŞ ilə diplomatik münasibətlərin bərpa olunmasına hazır olduğunu bəyan etdikdən sonra 26 noyabr 1984-cüildə bu əlaqələr yenidən bərpa olundu. Bu münasibətlə Tariq Əziz Vaşinqtona rəsmi səfər etdi. İyulun əvvəllərindən Körfəzdə savaşa ABŞ-ın müdaxiləsi gücləndi. ABŞ-ın hərbi gəmiləri Bəhreynə Amerika eskadrası üçün yanacaq gətirməyə gedən tankeri müşayiət etməyə başladılar. 1984-cüilin avqustunda Fars körfəzi və Ərəbistan dənizi rayonunda 11,5 min Amerika dənizçisi və əsgəri var idi.

Beləliklə, Fars körfəzi sularında gərginliyin zəiflədilməsi gözlənilmirdi. Bu isə o demək idi ki, bu rayonda hücuma məruz qalmış gəmilərin sayı getdikcə artacaqdır. 1986-cı ilin iyunun ortalarında hərbi münaqişə çərçivəsindən çıxmağa başladı. İki ölkə arasındakı silahlı münaqişənin miqyasının genişlənməsi Fars körfəzi rayonunda təhlükəsizliyi zərbəyə məruz qoyurdu. İranın hərbi dəniz qüvvələrinin Küveytə məxsus yeddi kateri tutması buna misal olaraq göstərilə bilər.

İraq-İran savaşının gedişində ABŞ Bağdadı müdafiə etdiyini nümayiş etdirmək üçün Vaşinqton rəsmilərini regiona müxtəlif səfərlərə göndərirdi. Bu mənada, 1986-cı ilin aprelində ABŞ-ın prezidenti Corj Buşun regiona səfəri xüsusi qeyd edilə bilər. Həmin səfərdə o, birmənalı şəkildə savaşda İranın qələbə çalmasının ABŞ-ın maraqlarına zidd olacağını bəyan etdi (5, 357). Bununla belə, Vaşinqtonun İraqı müdafiə etməsi heç də ABŞ-ın İraqla strateji müttəfiq olajağını söyləməyə əsas vermirdi. Çünki ABŞ üçün regionda Səudi Ərəbistanının liderliyi ilə İran-İraq-Səudi Ərəbistanı strateji üçbucağının formalaşdırılması daha məqsədəuyğun idi. Burada, Vaşinqtonun məqsədi sözügedən üçbucağın vasitəsilə İranın savaşda, eləcədə ondan sonrakı dövrdə uğurunun qarşısını almaq idi. Bu nədən irəli gəlirdi? İraqdan fərqli olaraq İran savaşın gedişində regionun digər dövlətlərinə – Küveyt və Bəhreynə də təjavüz edəjəyini gizlətmirdi. Savaşda İranın qələbə çalması regionda onun hegemonluğuna gətirib çıxara bilərdi. Digər tərəfdən, İran xariji dövlətlərdən İsrail vasitəsilə silah alırdı ki, bu özü də savaşın gedişində əsas diqqəti çəkən amillərdən biri idi. Eyni zamanda, İsrail İraqın güclənməsindən ehtiyat edərək, İrana yardım edirdi. ABŞ isə neytral mövqe elan etməsinə baxmayaraq, ikili standart siyasəti yeridirdi və İrana da silah satırdı. Bu İrangeyt hadisəsi isə 1986-cı ilin noyabrında bütün dünyaya məlum oldu. Düzdür, Reyqan İrana hər cür, ilk növbədə, hərbi yardımı kəsmək məcburiyyətində qaldı (9, 539). ABŞ-ın bu mövqeyi, faktiki olaraq, ərəb birliyinə təkan verdi. Həmin dövr hadisələrinin gedişindəki ssenarinin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, ABŞ İrangeyt əməliyyatının açılmasında özü maraqlı olmuşdur. Çünki 1986-cı ildə artıq savaşın taleyi bəlli idi. İkincisi, Vaşinqton 80-ci illərin əvvəllərində regionda proseslərin ağırlığını Yaxın Şərq sülh prosesində Körfəz böhranına keçirməkdə istəyinə nail olmuşdu. Üçüncüsü isə, ABŞ-ın həmin addımı Misiri təcrid olunma vəziyyətindən çıxarırdı ki, bu da ABŞ üçün vacib idi. Çünki Misirin təcriddən çıxması ilə 80-ci illərin sonunda ərəb dövlətləri arasında yeni qüvvələr nisbəti yaranırdı ki, bu da Vaşinqtona daha çevik diplomatik manevr etmək imkanı verirdi.

Fars körfəzinin mərkəz hissəsində Səudi Ərəbistanının əl-Cübeyl limanı yaxınlığında daha bir tijarət gəmisinə basqın edilmişdi. ABŞ-ın dörd eskadra mina gəmisi Fars körfəzində Bəhreynin dəniz sahillərinin 120 milliyində İranın neftçıxarma platformasını şiddətli atəşə tutmuş və onu dağıtmışdı.

ABŞ prezidenti Ronald Reyqan Fars körfəzində baş vermiş hadisələr ilə əlaqədar ilk açıq bəyanatla 18 aprel 1988-ci ildə çıxış edərək İranı hədələmiş və bildirmişdi ki, Amerika hökuməti bu ölkəyə qarşı yeni silahlı tədbirlər görməyə hazırdır. İranın məsuliyyətsiz davranışı ona çox baha başa gələcəkdir. Bəyanat verilən vaxt İran sahillərində ABŞ hərbi dəniz qüvvələrinin 20-dən çox gəmisi var idi. Ümumiyyətlə, Fars körfəzinə və onun yaxınlığına Amerikanın təxminən 30 gəmisi, o cümlədən «enter prayz» atom aviasiya gəmisi cəmləşdirilmişdi.

ABŞ-ın silahlı əməliyyatları Fars körfəzi ölkələrində böyük narahatlığa səbəb olmuşdu. Elə buna görədir ki, silahlı münaqişənin həllinə doğru atılmış ilk addım 20 avqust 1988-di ildə Qrinviç vaxtı ilə səhər saat 3-də bütün cəbhə boyu atəşi dayandırajağı xəbəri dünya ictimaiyyəti tərəfindən razılıqla qarşılandı.

Ümumiyyətlə götürsək, ərəb ölkələri arasındakı münasibətlərdə mövcud olan ziddiyyət aradan qaldırılmadan Yaxın Şərqdə möhkəm sülhə nail olmaq mümkün deyil. Professor Dan Cirgi bu fikri daha obyektiv ifadə edərək qeyd edir ki, «ABŞ bütünlüklə xarici siyasətində beynəlxalq hüqüqa əsaslansa belə, ərəb-İsrail münaqişəsi ən optimal variantda həll edilsə belə, yenə ərəb ölkələrinin gələcəyi problematikdir» (10, 79).

Yaxın və Orta Şərqdə XX əsrin ən böyük savaşı kimi başa çatan İraq-İran savaşı öz nəticələrinə görə beynəlxalq aləmdə, eləcədə, müxtəlif siyasi dairələrdə bu günə kimi müzakirə obyekti olaraq qalmaqdadır. Bunu nə ilə izah etmək olar. İlk növbədə, bu İraqın mövqeyi ilə birbaşa əlaqədardır. Məsələyə rəsmi Bağdadın mövqeyindən yanaşılması məqsədəuyğun deyildi. Belə ki, burada İraqın iddiasında bir həqiqət vardır ki, bu da savaşın başlanmasına gətirib çıxaran sərhəd probleminin həll edilməməsindəki məsələlərlə birbaşa əlaqadardır. Məlum olduğu kimi, Şətt əl-Ərəb çayının iki dövlət arasında sərhəd kimi müəyyən olunmasında problemin açıq qalması hələ Osmanlı imperiyasının dağılmasından sonra ortaya çıxan ərazi və sərhəd məsələləri ilə birbaşa əlaqədar idi. Bu mənada, Osmanlı imperiyasının dağılmasından sonra Yaxın və Orta Şərqdə yeni siyasi xəritənin cızılmasında rol oynamış Avropa dövlətləri bu məsələdə konkret razılığa gələ bilməmişlər. İraq-İran sərhəddi üzərində yaradıla biləcək münaqişə, faktiki olaraq, istər SSRİ, istərsə də Qərb dövlətləri üçün regionda balansı müəyyən etmək sahəsində geostrateji rol oynamışdır. Şətt əl-Ərəb çayının çox hissəsinin İraqa aid edilməsində Bağdadın daha çox haqqı olmasına baxmayaraq, İranın sərhəd məsələsini daim ön plana çəkməsi, onun milli və dövlət maraqlarından çox rəsmi Moskvanın regionda balansa nəzarət etmək iddiasından başqa bir şey deyildi. Bunu Cenevrədə aparılan danışıqlarda rəsmi Moskvanın nümayiş etdirdiyi mövqe də bir daha sübut edir.

1988-ci ilin iyununda İran İslam Respublikası 20 iyul 1987-ci ildə BMT-nin Təhlükəsizlik Şurasının 598-ci qətnaməsini qəbul etməsi haqqında bəyanat verdi. 1988-ci ilin avqustunda İranla İraq arasında savaşın dayandırılması haqqında razılıq əldə edildi (11, 313). Xatırladaq ki, İraq təcavüzkar elan edilmədiyi üçün İran tərəfi qətnaməni qəbul etmək istəmirdi. 1988-ci ilin martından başlayaraq, İran orduları həlledici döyüşə başladılar, lakin ilk əvvəl müvəffəqiyyyət qazansalarda, sonradan ciddi məğlubiyyətlərə məruz qaldılar.

1988-ci ilin ortalarında ABŞ hərbi kontengini artırmağa Fars körfəzi regonunda hərbi münasibətlərdə aparıcı qüvvəyə çevrilmişdi. Burada onun 27 gəmidən ibarət armadı və müttəfiqlərinin bir neçə gəmisi yerləşirdi. Amerikalılar bir neçə İran neft platformasını, 6 gəmini və tez gedən katerlərini

batırdılar. Xarakter haldır ki, bu aksiya İraq silahlı qüvvələrinin Fao adasını azad edən əməliyyatla eyni vaxta düşmüşdü. 3 iyulda Amerikanın «Vinesenes» kreyserindən buraxılmış raketlər «İran Eyr» aviakompaniyasına məxsus, Bəndər-Abbasdan Əbu-Dabiyə reys edən içərisində 117 qadın və uşaq olmaqla 298 nəfər sərnişinin olduğu təyyarəni vurdu (12, 163). ABŞ-la əks cəbhələrdə üz-üzə durmaq İran İslam Respublikasının üzüjü savaşına sarsıdıcı zərbə vurdu. Digər səbəblər də var idi. 1988-ci ilin iyulunda İran 5 mlrd. dollar aktivə malik idi, halbuki, hər il hərbi xərclər 8-10 mlrd. təşkil edirdi. Cəmiyyətdə narazılıq artmışdı, əvvəlki illərlə müqayiəsədə 1988-ci ldə könüllülərin sayı üçdə bir qədər azalmışdı.

Artıq 1988-ci ildə baş verən hərbi döyüşlərin gedişində İİR-nın rəhbərliyi bir daha əmin oldu ki, Fars Körfəzi Ərəb Dövlətləri Əməkdaşlıq Şurasından böyük məbləğdə maliyyə yardımı və SSRİ, Qərbi Avropa və ABŞ-dan geniş miqyaslı müasir hərbi texnika alan İraq üzərində qələbə çalmaq qeyri-mümkündür (13, 398).

20 avqust 1988-ci ildə başlayan İraq-İran sülh danışıqları Cenevrə və Nyu Yorkda keçirildi. 15 raund keçirilən bu danşıqlar 1990-cı ilin avqustunda razılıq əldə edilmədən kəsildi. Son on illərdir ki, İraq-İran münaqişəsi donduruldu və hərbi əməliyytlar dayandırıldı. ABŞ-ın İraqa olan loyal münasibətindəki inkişaf çox çəkmədi. 1989-cu ildə iki ölkə arasında yenidən dövlətlərarası soyuq münasibət formalaşmağa başladı. Bu da İraqın İranla savaşda kimyəvi silahdan istifadə etməsi ilə əlaqədar idi.

İraq-İran danışıqlarının konkret nəticəsiz olaraq başa çatması bir daha onu göstərdi ki, ikiqütblü sülh sistemi şəraitində iri dövlətlərin regionda toqquşan maraqları bu savaşın nəticəsi ilə tam olaraq balanslaşdırılmadı. Danışıqların istər münaqişə tərəfləri, istərsə də maraqlı tərəflər üçün nəticəsiz başa çatması siyasi müşahidəçi və politoloqlara onu deməyə əsas verdi ki, Yaxın və Orta Şərqdə savaş faktiki başa çatmamış və yeni savaş təhlükəsi formalaşmaqdadır. Danışıqların nəticəsiz qalması, eyni zamanda, istər İran, istərsə də İraq üçün də istənilən nəticə deyildi. Nə rəsmi Tehran, nə də rəsmi Bağdad danışıqların bu formada açıq qalması ilə ölkənin üzləşmiş olduğu sosial-iqtisadi və siyasi problemlərin həlli ilə üz-üzə qalmışdı. Bu isə hər iki ölkədə yeni sosial partlayışlar demək idi. Bunu sonrakı proseslər - iki il sonra İraqın Küveyti işğal etməsi bunu bir daha sübut etmiş oldu. Yenə münaqişənin həllində Vaşinqtonun mövqeyi önə çıxdı.

## ƏDƏBİYYAT


1. Fahir Armaoğlu. 20 yüzyil siyasi tarihi. 1914-1980. Ankara: TISA Matbaası, 1983, 851 s.
2. Уильям Мэлон. «Учили ли США Ирак прятать свое оружие массового уничтожения». КОМПАС БПИ, ИНО ТАСС, 4.12.91, с. 6.
3. Вавилов А.И. Политика США в мусульманском мире на примере арабских стран. М.: 2009, 351 с.
4. Касаткин Д., Ушаков В. Четвертый год войны. «Азия и Африка сегодня», №4, 1984, с.5.

5. Viorst Milton. Traq t war. Foreigh Affairs. N.Y. 1986/1987, vol. 65, №2, p.16.
6. Джо Сторк. Иракгейт, или верх цинизма. ИТАР ТАСС 23.02.93, с.6.
7. Qarayeva G., Hacıqədirli A. Ərəb ölkələrinin çağdaş sosial-iqtisadi və siyasi inkişafının xüsusiyyətləri. Bakı, 2012, s.474
8. Ниязматов Ш.А. Ирано-иракский конфликт. М., 1989, 176 с.
9. Багирова А. Внешняяя политика Ирака (1968-2003). Баку: Адилоглу, 2003, 539 с.
10. Aynur Hacıqədirli. ABŞ-ın Yaxın və Orta Şərq siyaətinin bəzi məqamları. Şərqin aktual problemləri: Tarix və müasirlik. Bakı, 2001, 5 s.
11. Ден Кон Шербок, Дауд эль-Алами. Палестино-израильский конфликт. Две точки зрения. М., 2002, 313 с.
12. Повлов Д. Иран. От полуколонии региональному лидерству. Ближний Восток: война и политика. М.: Издательский дом Марджани, 2010, 276 с.
13. Современные международные отношения. М., 2001, 582 с.

## ОТНОШЕНИЯ США С ИРАКОМ В 80-Х ГОДАХ ХХ ВЕКА

**Г.И.КАРАЕВА**

### РЕЗЮМЕ

В результате шестидневной арабо-израильской войны дипломатические отношения между США и Ираком были прекращены. Эти отношения были восстановлены во время ирано-иракской войны. В феврале 1982 года США вычеркнул Ирак из списка государств, поддерживающих международный терроризм. В 1984 году наступил новый этап в развитии отношений между Ираком и Соединенными Штатами. 26 ноября 1984, были восстановлены дипломатические отношения между Ираком и Соединенными Штатами. По этому случаю, Тарик Азиз совершил официальный визит в Вашингтон. Во время войны США оказал Ираку любого рода военную помощь. В августе 1988 года, была достигнута договоренность о приостановлении войны между Ираком и Ираном. Было заключено официальное соглашение между Ираном и Ираком о прекращении войны.

**Ключевые слова:** война, мир, Тарик Азиз, отношение

## U.S. RELATIONS WITH IRAQ IN THE 80s OF THE XX CENTURY

**G.İ.GARAYEVA**

### SUMMARY

As a result of the six-day Arab-Israeli war, diplomatic relations between the U.S. and Iraq were cut off. These relations were restored during the Iran-Iraq war in February 1982, the U.S. withdrew Iraq from the list of state sponsors of international terrorism. In 1984, there started a new stage in the development of relations between Iraq and the United States. On november 26, 1984, diplomatic relations between Iraq and the United States were restored. On this occasion, Tariq Aziz made an official visit to Washington.During the Iraq war, the U.S. rendered any kind of military assistance. In August 1988, it was agreed to suspend the war between Iraq and Iran. Agreement was reached between Iran and Iraq to end the war.

**Key words:** war, peace, Tariq Aziz, relation